*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 may 2017-ci il № 41 (2158) Qiyməti 25 qəpik


## "Vətənimdir, Vətənim!"



Aprel döyüşləri tarixdi. Aprel döyüşləri tarixə yazıldı. Aprel zəfəri dərsliklərə salınacaq...

Azərbaycan əsgəri bu qürurlarla xidmət edir. Bu qürur ön xətdə daha qətiyyətlə yaşanılır.

Əsgər dayandığı səngəri Vətənin bir parçası kimi deyil, Vətən kimi qoruyur. Səngərin o üzü düşməndi. Müşahidə müdafiənin tərkib hissəsidi - düşmənin hər tərpənişi izlənilir. Relyefdən asılı olmayaraq Azərbaycan əsgərinin dayandığı mövqe ucalıqdı. Əsgərlərimiz Vətən ucalığını ucalıqdan uca amallarla qoruyurlar...

Mirdaməd Lətifzadə hərbi xidmətə Ağdaş rayonundan çağırılıb. 4 aydı hərbi xidmətdədi. İntizamlı əsgərdi. "Hərbi and hərbi xidmət dövrü üçündü, Vətən andı - ömürlük. Anda sədaqəti hər birimiz mənəvi borc bilirik", - əsgər Mirdaməd Lətifzadənin bu nurlu düşüncələrini Böyük Qələbəyə aparan yolun işığı bilirik...

Əsgər Mirdaməd Lətifzadə ona tapşırılmış ərazini böyük məsuliyyətlə, əsgəri intizamla qoruyur. Ürəyinin genişliyini Vətən torpağının genişliyinə qatmaq istəyir. Dünyaca məşhur müğənnimiz Rəşid Behbudovun oxuduğu "Azərbaycan" mahnısını xatırlayırıq. Eyni məqamı o mahnının tele-səslənişində də görmüşük. "...Bir anamdan, bir də səndən doya bilmirəm, ey Vətən!" - deyir. Əsgər Mirdaməd Lətifzadənin baxışları da deyir ki, Vətən, nə anamdan, nə də səndən doya bilmərəm! Bu da anddı. Hərbi andı tamamlayan bu and mənəvi hazırlığın səviyyəsinin təsdiqidi...

Vətən sevgisi var! Vətən sevgisini ömür çırağı bilən əsgərlərimiz var!

Döyüş hazırlığını mənəvi-psixoloji hazırlığı tamamlayan əsgər nəyi qoruduğunu yaxşı bilir. Sevir - qoruyur, qoruyur - sevir. Hər əsgərimiz həm döyüş hazırlığıyla, həm də Vətən sevgisiylə qüdrətlidir. Bu qüdrət torpaqlarımızın azad olunmasını təmin edəcək.

...İşğal Vətənin genişliyini qısaldıb. Əsgərlərimiz o genişliyi bərpa edəcək. Həm də yaxın vaxtlarda. Əsgər Mirdaməd Lətifzadənin də xidmət yolunu, xidmətdən sonrakı ömür yolunu bir misra işıqlandırır: "Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim!"...

**"Azərbaycan Ordusu", foto Coşqun CƏFƏROVUNDUR**



"Bu, Vətən sevgisidi"

3-cü səhifədə



"Vətənə xidmətdən şərəfli peşə yoxdur"

4-cü səhifədə



Müstəqillik milli ruhun təntənəsidir

5-ci səhifədə



Cəbhə xəttindəki hərbi hissədə bir gün...

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Raket və artilleriya birləşmələri döyüş atışlı təlimlər keçirir





*Silahlı Qüvvələrin 2017-ci il üçün hazırlıq planına uyğun olaraq, raket və artilleriya birləşmələrinin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlimlər keçirilir.*

Döyüş şəraitinə uyğun vəziyyətdə keçirilən təlimlərdə artilleriya bölmələrinin marşı icra etməsi, cəmləşmə rayonlarına çıxarılması, qərarların qəbul olunması, gizliliyə riayət etməklə atəş və start mövqelərinin tutulması, döyüşün gedişində yerdəyişmə və digər tapşırıqlar yerinə yetirilir.

Təlimlərdə praktiki döyüş atışlarının dəqiqliyini və intensivliyini təmin etmək məqsədilə müasir avtomatlaşdırılmış idarəetmə sistemlərindən, atəşin korrektə edilməsi üçün isə pilotsuz uçuş aparatlarından istifadə edilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Nümunəvi xidmət*

# Vətəni qorumaq ən şərəfli vəzifədir

*Müstəqil Azərbaycan, Vətənimiz, yurdumuz ifadəsi hamımız üçün əzizdir. Amma dövlətimizin müstəqilliyini möhkəmlətmək üçün hər kəs əlindən gələni etməli, Vətən torpağına göz dikənlərə qarşı mübarizə aparmalıdır. Vətənə xidmət etmək vətəndaşın müqəddəs borcudur. Bu şərəfli borcu məsuliyyətlə yerinə yetirmək üçün üzərimizə düşən tapşırıqları, vəzifələri vaxtında və düzgün yerinə yetirməli, öz xidmətimizlə digər yoldaşlarımıza da nümunə olmalıyıq.*

Ön xətdə yerləşən hərbi hissələrdən birindəyəm. Erməni qəsbkarları ilə üz-üzə mövqelərdə torpaqlarımızı qoruyan zabit və əsgərlərlə görüşürəm. Üzlərində məğrurluq, gözlərində düşmənə nifrət sezilən Vətən oğulları torpaqlarımızın müdafiəsində durmaqla yanaşı, Ali Baş Komandanın əmri ilə döyüşə hər an hazırdılar. Döyüş növbətçiliyindən yenicə qayıtmış Vətən keşikçilərindən biri ilə həmsöhbət oluram. Hərbi xidmətə gəldiyi ilk gündən döyüş vəzifəsinin, silahının sirlərini mənimsəyən əsgər Teymur Mustafayevdir. Nizam-intizamı, döyüş hazırlığı, yüksək mədəniyyəti və əxlaqı ilə seçilən Teymur haqqında post başçısı xoş sözlər deyir.

Teymur xidmət Göyçay rayonundan xidmətə çağırılıb, 11 aydır edir. Elə ilk günlərdən bacarığı və vətənpərvərliyi ilə komandirlərinin hörmətini, əsgər dostlarının rəğbətini qazanıb.



- Ordu sıralarına həvəslə gəlmişəm, - əsgər deyir. - Erkən yaşlarımdan əsgər formasını geyinəcəyim günü səbirsizliklə gözləyirdim. Çünki düşmənimizə intiqam hissi ilə böyümüşəm. Valideynlərim ermənilərin xalqımızın başına açdıqları müsibətlər haqqında tez-tez danışırdılar. Uşaq və qadınların vəhşicəsinə qətlə yetirilməsi, işgəncələrə məruz qalması məndə də hiddət doğurdu. Ona görə də cəbhə xəttində xidmətə başlamaq, düşmənlə üzbəüz dayanan Vətən oğullarının sırasına qatılmaq istəyirdim. Arzuma çatdım. Vətənə əsgər oldum. Mənim üçün bundan müqəddəs, ülvi bir istək yoxdur. Bacarıqlı komandirlərimin hesabına döyüş peşəsinin sirlərinə yiyələndim, gündən-günə hazırlığımı artırdım.

Söhbətinə davam edərək bildirir ki, xidmətini başa vurduqdan sonra yenidən ordu sıralarına qayıtmaq istəyir. "Xidmətim başa çatana qədər komandirlərimdən öyrənməyə, döyüş vərdişlərinə daha da dərindən yiyələnməyə çalışıram. Çünki xidmətimi başa vurub yenidən taleyimi hərbi peşəyə bağlamaq fikrindəyəm. Torpaqlarımız azad olunana qədər Vətənin keşiyində dayanmağa söz vermişəm. Biz hər zaman döyüşə hazır olmalıyıq ki, əmr verildikdə qələbə bizim olsun".

Doğrudan da, bu gün ordu sıralarında vətənpərvər, bacarıqlı döyüşçülərimiz saysızdır. Onların hamısı bir amal üçün yaşayır - işğalda olan torpaqlarımızı düşməndən təmizləmək. Vətən müqəddəsdir, onu qorumaq isə ən şərəfli peşədir. Əsgər Vətəni üçün yaşayır...

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

*Ordu və cəmiyyət*

# Əsgərlərimizlə fəxr edirik

Qardaşım Aqil Faiq oğlu Əliyev gənc əsgər kursunu uğurla başa vurduqdan sonra xidmətini döyüş bölgələrinə yaxın "N" hərbi hissəsində davam etdirir.

Bu yaxınlarda onun xidmət etdiyi hərbi hissəyə getmişdim. Burada nəzarət-buraxılış məntəqəsində xidmət aparan hərbi qulluqçularımızı səliqəli, döyüş bölgəsində günün tələbinə uyğun intizamlı xidmət apardıqlarını gördüm. Bütün bunlar hərbi hissə komandanlığının və şəxsi heyətin Vətənə vicdanlı xidmət etməsindən xəbər verirdi.

Respublika rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə yenidən qurulub, hərtərəfli maddi-texniki və sosial-məişət şəraiti ilə təmin edilən hərbi hissədə gördüklərimdən xüsusi qürur hissi duydum. Əsgərlərin təlim-tədris şəraiti yüksək səviyyədədir. Hər tərəfdə abadlıq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Yüksək nizam-intizam və səliqə-sahman daim qorunub saxlanılır. Hər bir xidmət sahəsi ürəkaçan səviyyədədir. Əsgər yeməkxanasındakı səliqəli və bacarıqlı aşpazlazların şəxsi heyət üçün hazırladığı dadlı xörəklər xüsusilə diqqətəlayiqdir.

Göz oxşayan, könül sevindirən bu yeniliklər və onların doğurduğu xoş təəssüratlar məndə düşmən üzərində böyük qələbəmizə inam hissini daha da artırdı. Əsgərlərə göstərilən qayğı və tələbkarlıqdan çox məmnun oldum. Əlbəttə, belə şərait, ordumuzun döyüş hazırlığı bütün valideynləri sevindirir.

Cəmiyyət ordu haqqında geniş məlumata malikdir. Biz də bilirik ki, son illərdə Silahlı Qüvvələrimizdə irimiqyaslı islahatlar həyata keçirilib. Bu islahatların nəticəsidir ki, indi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Ona da sevinir və qürur duyuruq ki, əsgərlərimizin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığı kifayət qədər yüksəkdir. Əsgər üçün bir müqəddəslik var: Vətən. Əsgər ana bildiyi Vətəni göz bəbəyi kimi qoruyur.

Qardaşıma ata əvəzi bir valideyn kimi tövsiyə etdim ki, Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirsin, silah və texnikanın sirlərinə dərindən yiyələnsin, ən başlıcası, torpaqlarımızın müdafiəsində mətin dayansın.

Hərbi hissədə əsgərlərimizə göstərilən yüksək diqqət və qayğıya görə ilk növbədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova ailəmiz adından dərin minnətdarlığımı bildirirəm. Eləcə də mükəmməl təlim və məşqlər keçdiklərinə, Vətənə şərəfli xidmətlərinə görə bütün komandir heyətinə təşəkkür edirəm. Biz fəxr edirik ki, ordu sıralarında belə təcrübəli və bacarıqlı komandirlərimiz var.

Ümidvaram ki, bunların yüksək döyüş hazırlığı sayəsində torpaqlarımızı mənfur erməni işğalçılarından tezliklə azad edəcəyik!

**Araz ƏLİYEV,
Bakı şəhəri**

# "Bu, Vətən sevgisidi"

*Qarabağımıza da yaz gəlib... Yazın gəlişindən ilham alan dağ-dərə, enişyoxuş - hər tərəf yamyaşıldır. Buludların arasından boylanan günəşin zəif şəfəqləri yaşıllığa elə bil sığal çəkir. Ruhumun dərinliyindən gələn, izaholunmaz özəl bir sevgi duyuram. Bu, Vətən sevgisidi... Dayandığım yüksəklik sanki ruhumun yüksəkliyidi. Bu mənada dayandığım postu - səngəri qəlbimin ruh qalası bilirəm. Ancaq bu səngərin timsalında bütün səngərlərimiz nəinki bizim qəlbimizin, eyni zamanda Azərbaycanımızın ruh qalasıdır. Elə buna görə də ruhi-mənəvi mübarizəmiz səngiməz bilmir. Uca dağların, polad biləkli, qartal baxışlı oğulların hesabına səngimir...*



Həmin postlarda Vətənimizin keşiyini çəkən oğullardan biri - gizir Maarif Abbasovla həmsöhbət olanda öyrənirəm ki, İmişlidən olan gəncin yenidən hərbi xidmətə qayıtmağa vasitə olan amil qonşusu və qohumu kapitan Nəcməddin Savalanovun aprel döyüşlərində şəhid olmasıdır. Gizir Abbasov onu da qeyd etdi ki, şəhidlik ruhu ölməzdir. Şəhidliyə ucalan oğul, torpağına baş qoyan övlad, Vətəninə görə həlak olan əsgər əbədi yaşayır: "Onun kimi bir çox oğullarımızın getdiyi yolu seçmək qərarına gəldim. Düzdür, Nəcməddinin ölümü nə qədər ağrılı, acılı və iztirablı olsa da, hesab etdim ki, kədərə köklənməyəcəm. Yeri boşalmış hərbçimizin yerini tutacam. Onun ruhu qarşısında içdiyim anda sadiq olmaq üçün həmin hadisədən bir neçə gün sonra sənədlərimi Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə təqdim etdim. Bu gün torpaqlarımızın keşiyində dayananlardan biriyəm".

Vətənin keşiyində durmaq peşəsinə üstünlük verdiyindən qürur duyduğunu deyən gizir inandığını bildirdi ki, bu işğala yaxın vaxtlarda son qoyulacaq, onun da iştirakı ilə torpaqlarımız alınacaq, bax, yalnız onda şəhidlərimizin ruhu rahatlıq tapacaq. Bunun tezliklə xalqımızın igid oğullarının, Silahlı Qüvvələrimizin şəxsi heyətinin Prezident, Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında baş tutacağına inandığını da qeyd etdi.

8 aydan çoxdur ki, gizir kimi hərbi xidmətdədir. O hesab edir ki, əsl hərbçi gərək bu peşənin mahiyyətini, məsuliyyətini dərk etsin və bu peşənin qədrini bilsin: "Mən fəxr edirəm ki, hərbçi olmuşam. Amma yaxşı hərbçi olmaq əsasdır. Hər kəs öz peşəsini, işini sevməlidir. Belə müqəddəs bir peşəni seçən şəxs hərbçi nüfuzunu qorumalıdır. Öz əsgərini bir şəxsiyyət kimi qəbul edən, ona hörmət bəsləyən, əsgərinin layiqli formalaşmasını, hərbi təcrübəsini, təhsilini görən, hər bir əsgərə öz övladı kimi qayğı göstərən komandir yaxşı komandirdir".

Taqım komandirinin müavini şəxsi heyət arasında daxili qayda-qanuna və hərbi intizama xüsusi önəm verdiyini, manqa komandirlərinin və bütün şəxsi heyətin hərbi intizama riayət etmələrinə diqqət yetirdiyini də qeyd etdi: "Bunun üçün ilk növbədə tabeliyimdə olan hər bir əsgəri yaxından tanımağa, onların şəxsi keyfiyyətlərini öyrənməyə çalışıram. Fəxr edirəm ki, leytenant Rəşad Süleymanov kimi zabitlərimiz və manqa komandiri Emin Lətifzadə kimi əsgərlərimiz az deyil. Belə oğullarla dağı dağ üstə qoymaq olar".

Vaxtdır, xüdahafizləşib yola çıxıram. Ancaq yolboyu beynimə bir fikir hakimdir: "Bu gün ruhi-mənəvi mübarizəmiz səngiməyib... Uca dağların, polad biləkli, qartal baxışlı oğulların hesabına səngiməyib... O oğullardan da biri Maarif Abbasovdu...".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***30 may 2017-ci il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və 82 millimetrlik minaatanlardan da (13 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 128 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Qaraqaşlı, Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Etibarlı müdafiəçilər



Hər kəs doğulub böyüdüyü, ulu əcdadından bu günədək qorunan, müqəddəs Ana torpağa Vətən deyir. Hər dəfə Azərbaycan kəlməsi səslənəndə sevgidən ürəyi titrəyən insan əsl vətənpərvərdir. Hər işdə və əməldə Vətənin mənafeyinə xidmət edənlərdi əsl vətəndaş.

Ölkəmizin yerləşdiyi geostrateji məkan tarix boyu yadelli işğalçıların diqqətini cəlb edib. Odur ki, min illərdir bu zəngin torpaqlara yiyələnmək istəyənlərin maraqlarının kəsişdiyi bir diyar olub Azərbaycan. Amma üstündə gəzdiyi, yaşayıb yaratdığı, havası, suyu ilə qidalandığı ana torpağı canından çox sevənlərin qoruduğu Azərbaycan bu gün qüdrətli bir dövlətdir. Əsarətə, düşmən hücumlarına baş əyməyən, mərd, mübariz xalqımızın Vətən dediyi Azərbaycan bu gün güclü iqtisadiyyata, hərbi potensiala malikdir. Güclü ordumuzun mərd əsgərləri torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanaraq Vətənimizi göz bəbəyi kimi qoruyurlar. Ön xətdəki mövqelərimizdə xidmət aparan şəxsi heyətlə həmsöhbət olan zaman hərbi qulluqçularımızın Vətən sevgisi, ordumuzun qüdrəti hər birimizi daha da qürurlandırır.

Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrindən birində xidmət edən zabitlərimizdən Vüqar Əmirxanov, Seymur Mancanov, Ramiz Cəbiyev və başqaları ilə həmsöhbət olan zaman bildirdilər ki, əsgərlərin döyüş qabiliyyətinin artırılması diqqət mərkəzində saxlanılır. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyətə mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı dərsləri keçirilir. Nəticədə hərbi qulluqçularımız istənilən döyüş tapşırığını yerinə yetirməyə hər an hazırdırlar.

Döyüş postlarında ayıq-sayıq xidmət aparan əsgərlərdən Samir Seyidzadə, Murad Muxtarlı, Abbas Hacıyev, Əli Məmmədov, Elvin Məmmədyarov, Məmməd Bayramov, Mirbabək Əzizov, Ramil İslamov və başqaları ön xətdəki xidmətlərindən, dostluq-qardaşlıq münasibətlərindən ətraflı danışdılar.

Kiçik çavuş Araz İslamov günün nizam qaydasına uyğun keçirilən dərslərdən, əsgər yoldaşlarının vətənpərvərliyindən iftixarla danışdı: "Bizim üçün yaradılan hərtərəfli şərait nəticəsində özümüzü evimizdəki kimi hiss edirik. Səngərlərdə xidmət etməyimizlə hər birimiz qürur duyur, komandirlərin tapşırıqlarını sözsüz yerinə yetirik. Keçirilən təlimlərin nəticəsidir ki, düşməni ilk atəşlə məhv etməyə qadirik".

Əlahiddə Ümumqoşun Ordunun ön xətdəki bölmələrindən birində apardığımız müşahidələrə əsaslanıb deyə bilərik ki, düşməndən qat-qat güclü olan ordumuz torpaqlarımızı etibarlı müdafiə edirlər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**foto**
**əsgər**
**Rasim İSMAYILLININDIR**



# Səyyar sanitar epidemioloji dəstənin taktiki-xüsusi təlimi keçirilib

2017-ci tədris ilinin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Tibb Baş İdarəsi Sanitar epidemioloji nəzarət mərkəzində "Səyyar sanitar epidemioloji dəstənin hərəkəti, açılması və sahə şəraitində işinin təşkili" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Təlimin keçirilməsində əsas məqsəd səyyar sanitar-epidemioloji dəstənin fəaliyyət sahəsinin düzgün seçilməsi, xüsusi texnika və avadanlığın yerləşdirilməsi, işin təşkili üzrə şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi, sanitar epidemioloji və bakterioloji kəşfiyyatın aparılması, səhra şəraitində bakterioloji vasitələrin, radioaktiv maddələrin və döyüş zəhərləyici maddələrin indikasiyası, ocaqlı deqazasiya, dezaktivasiya və dezinfeksiya işlərinin aparılması olub.

Şərti düşmənin kütləvi qırğın silahı tətbiq etdiyi ərazidə dozimetrik ölçmələrin aparılması, bioloji vasitələrin, radioaktiv maddələrin və döyüş zəhərləyici maddələrin indikasiyası məqsədilə nümunələrin götürülməsi, çirklənmə ocağının sərhədlərinin təyini, dozimetrik ölçmələrin nəticələrinin qiymətləndirilməsi, bakterioloji və toksiko-radioloji tədqiqlərin aparılması da praktiki yerinə yetirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

## Gənc əsgərlərin hazırlığı

# "Vətənə xidmətdən şərəfli peşə yoxdur"



*Təlim meydanında həyat qaynayırdı. Səhər tezdən dağların ətəyində tərtəmiz, sərin yaz havası adamın könlünü oxşayırdı. Ayrı-ayrı təlim yerlərində bölmələr komandirlərin rəhbərliyilə dərslərə cəlb edilmişdilər. Müxtəlif hərbi hissələrin bölmələri həm müxtəlif ixtisaslar üzrə praktik məşğələlərdə iştirak edir, həm də atışları yerinə yetirirdilər. Taqım komandiri leytenant Cavidan İbadov da burada gənc əsgərlərlə məşğələ aparırdı.*

- Döyüş hazırlığı planında nəzərdə tutulmuş bütün tədbirlər tərəfimizdən həyata keçirilir və gənc əsgərlər kursunda öyrədilənləri əsgərlər yüksək səviyyədə mənimsəyirlər, - leytenant Cavidan İbadov deyir. - İndi də ixtisas üzrə nəzərdə tutulan bütün bilik və vərdişləri qazandırmağa çalışırıq. Bir müddət sonra onlar digər hərbi hissələrə göndəriləcəklər. İnanıram ki, gənc əsgər kimi öyrəndiklərini əsas xidmət yerlərində məharətlə tətbiq etməyi bacaracaqlar.

Məlum olduğu kimi, gənc əsgərlər öncə hərbi hazırlıq keçir, sonra müəyyən ixtisaslar üzrə seçilir və həmin ixtisaslar üzrə hazırlaşırlar. Hər şeydən öncə gənc əsgərlər sıra hazırlığı ilə məşğul olublar. Bundan əlavə, onlar hərbi qanunvericilik və nizamnamələrin tələblərilə tanış ediliblər, hüquq saatlarında hərbi xidmət əleyhinə cinayətlər və bu cinayətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyətlər barədə bilgi alıblar. Döyüş hazırlığı dərslərində gənc döyüşçülərə əsgəri peşə ilə bağlı lazımi bilgilər verilib, ictimai-siyasi hazırlıq dərslərində isə ölkəmizdə və regionumuzda baş verən hadisələr barədə məlumatlandırılıblar. Əsgərlərimiz hərbi intizama alışıblar və əsgəri peşənin sirlərini həvəslə öyrənirlər.

- Hər bir gənc Vətənə övladlıq borcunu verir, - nümunəvi xidmətilə fərqlənən əsgərlərdən manqa komandiri Cavid Quliyev deyir. - Yaşı çatanda hər kəs Vətənin keşiyində dayanır, anasını qoruduğu kimi, qoynunda böyüdüyü torpağı müdafiə edir. Həm də orduda xidmət gənclərə məsuliyyət, intizam, dözüm, mərdlik kimi keyfiyyətlər aşılayır.



Taqımdakı döyüşçülər təlim meydanında keçirilən dərsdə silahların xüsusiyyətlərinə yiyələnirdilər. Bir qədər sonra gənc əsgərlər RPK-dan atış çalışmasını yerinə yetirəcəkdilər. Bundan əvvəl isə onlar döyüş hazırlığı planına əsasən, iki dəfə atışda olublar. İndiyədək yalnız avtomatdan atmışdılar, indi pulemyotdan atacaqdılar.

Məşğələ zamanı o da məlum oldu ki, atışdan qabaq taqım komandiri döyüşçülərə komandir yeşiyində olan cihazlardan istifadə edərək silahlardan düzgün nişanalma qaydalarını öyrədirdi. Əsgərlərə silahların sıfırlanmasını izah edir, bunu praktik qaydada əsgərlərin bilavasitə iştirakı ilə təkrar-təkrar yerinə yetirirdi ki, mövzunu tamam mənimsəsinlər.

Leytenant Cavidan İbadov 2016-cı ilin noyabrından zabit kimi xidmətdədir. Azərbaycan Dövlət Pedaqoji Universitetini müvəffəqiyyətlə bitirib və Vətənə övladlıq borcunu vermək üçün ordu sıralarında xidmət edir.

Leytenant İbadov deyir:

- Vətənə xidmətdən şərəfli peşə yoxdur. Mən də fəxr edirəm ki, Azərbaycan Ordusunun zabitiyəm.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Snayperlərin praktiki atış bacarıqları yoxlanılır

*Silahlı Qüvvələrin 2017-ci ilin hazırlıq planına uyğun olaraq, cəbhə bölgəsində yerləşən birlik və hərbi hissələrdə snayperlərin atış bacarıqları yoxlanılır.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, çətin iqlim şəraiti, gecə vaxtı və dağlıq-meşəlik ərazidə keçirilən məşqlərdə şəxsi heyət müxtəlif təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi vərdişlərini təkmilləşdirir.

Peşəkar təlimatçıların rəhbərliyi ilə hazırlaşan snayperlər maskalanma, əsas və ehtiyat mövqelərin seçilməsi, müəyyən edilmiş koordinatlar üzrə uzaq məsafəyə yürüş və digər təlim tapşırıqlarını yerinə yetirirlər.



# NATO PA-nın komitə iclasında təcavüzkar Ermənistana qarşı tədbirlər görülməsi çağırışı edilib

NATO Parlament Assambleyasının yaz sessiyasında qurumun müdafiə və təhlükəsizlik komitəsinin iclasında "Ballistik raketdən müdafiə və NATO" adlı məruzə dinlənilib. Baş məruzəçi kanadalı deputat Jozef Day çıxış edərək Şimali Koreyada və digər ölkələrdə mövcud olan ballistik raketlərin dünyada təhlükəsizliyə təhdid olduğunu bildirib və buna qarşı mübarizədən danışıb.

Azərbaycan nümayəndə heyətinin üzvü Siyavuş Novruzov məruzə ətrafında çıxış edərək daha bir ölkənin - Ermənistanın da ballistik raketlərə malik olduğunu bildirib və bu ölkəyə qarşı tədbirlər görülməsini təklif edib. S.Novruzov deyib: "Məruzədə ballistik raketlərin beynəlxalq ictimaiyyət üçün törətdiyi təhlükələrin qeyd olunması çox yaxşı haldır. Bilirsiniz ki, Ermənistana bir milyard dollarlıq silah verilib. Onların sırasında "İsgəndər-M" operativ-taktiki raket kompleksi də var. Bu raket kompleksi Cənubi Qafqaz, eləcə də Avropa üçün çox ciddi təhlükədir".

Siyavuş Novruzov Ermənistan prezidenti Serj Sarkisyanın bu raketlərlə Azərbaycanı vuracağı barədə bəyanatını da diqqətə çatdırıb və komitə rəhbərliyinin, eləcə də məruzəçinin buna münasibətini soruşub.

Məruzəçi belə bir faktı diqqətə çatdırdığına görə Azərbaycan nümayəndə heyətinin üzvünə minnətdarlıq edib və faktın məruzədə nəzərə alınacağını bildirib.

**AZƏRTAC**

# Ziyafət Əsgərov:
# Məqsədimiz Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqdır

Tbilisidə NATO PA-nın yaz sessiyasında Azərbaycanın bu qurumdakı nümayəndə heyəti də iştirak edir.

Azərbaycanın NATO PA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov jurnalistlərə müsahibəsində deyib ki, sessiya çərçivəsində qurumun Siyasi, Müdafiə və təhlükəsizlik, Elm və texnologiyalar, İqtisadiyyat və təhlükəsizlik komitələrinin iclasları keçirilib. Bu iclaslarda Suriyada və İraqda müharibənin humanitar aspektləri, Sosial Media İnqilabının siyasi və təhlükəsizlik baxımından nəticələri, Qara Dəniz regionunda sabitliyin inkişafı, Ballistik raketdən müdafiə və NATO, NATO-Avropa İttifaqı əməkdaşlığı, Avropanın müdafiə sənayesi bazasının vəziyyəti, İqlim dəyişikliyi ilə əlaqədar xərclərin qiymətləndirilməsi, Yaxın Şərqdə və Şimali Afrikada ərzaq, su təhlükəsizliyi və digər məsələlər müzakirə olunur.

Azərbaycan nümayəndə heyətinin üzvləri bu iclaslarda çıxış edir, müzakirə olunan məsələlərə münasibət bildirirlər: "Biz çalışırıq ki, Azərbaycanın sosial-iqtisadi inkişafı, dünyada artan nüfuzu, bununla belə üzləşdiyi problemlər, xüsusən də Dağlıq Qarabağ münaqişəsi barədə dünya ictimaiyyətini, parlamentariləri daha çox məlumatlandıraq. Müzakirələr zamanı biz, Ermənistanın regiondakı pozuculuq fəaliyyəti, ballistik raketlərlə silahlanması və bunun təkcə region üçün deyil, bütövlükdə NATO üçün yaratdığı təhlükə barədə ətraflı məlumatlar veririk. Bəzi hallarda biz, Ermənistanın işğalçı dövlət olduğunu sübut edə bilirik. Bununla belə biz, mübarizəmizi davam etdiririk".

**AZƏRTAC**

# Müstəqillik milli ruhun təntənəsidir

## 28 May - Respublika Günü münasibətilə Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

*Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları - XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.*

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı.

Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.






1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, Azərbaycan dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı...

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.



Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini qeyd edəcək. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcək.

* * *

28 May - Respublika Günü münasibətilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hissə, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələri, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.



Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə keçirilən bayram konsertləri, viktorinalar, kütləvi hərbi vətənpərvərlik və digər tədbirlərdə şəxsi heyət, veteranlar, məktəblilər, tələbələr, ictimaiyyət nümayəndələri iştirak ediblər.

28 may 1918-ci il xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk edilib. Bu tarixi gün Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi daxil olub. Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Məmmədəmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əlağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunub. Keçirilən tədbirlərdə bu fikirlər qürurla səsləndirilib.

28 may 1918-ci il Azərbaycanın ən parlaq və unudulmaz tarixi günlərindən biri, yəni, Azərbaycanın istiqlal günüdür. Ali Baş Komandan İlham Əliyevin söylədiyi "Doxsan doqquz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bizim xalqımız bu respublikanı yaradıb. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu, özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi" kəlamları dövlətimizin və xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularına olan hörmət və ehtiramının göstəricisidir.

Müstəqilliyini bərpa etdikdən sonra bu bayram ölkəmizdə hər il böyük təntənə ilə qeyd edilir. Bayram tədbirlərində Cümhuriyyət dövrünə bir daha nəzər salınıb, onun tariximizdəki yeri və rolu haqqında geniş məlumatlar verilib. Bu əlamətdar gün münasibəti ilə keçirilən silsilə tədbirlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistləri böyük konsert proqramları ilə çıxış ediblər.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**
**1. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğu.**
**2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

**Mövzu:** Silahlı Qüvvələrin yaranması və formalaşması tarixi.

*1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğu*

1917-ci il dekabrın 6-da Zaqafqaziya Komissarlığının iclasında qərara alındı ki, Qafqaz ordusu milli tərkibli birləşmələr zəminində yenidən qurulsun. Bu qərara görə, tərkibi azərbaycanlılardan, gürcülərdən, ruslardan və ermənilərdən ibarət korpuslar təşkil edilməli idi.

Müsəlman Korpusunun yaradılması barədə dekret Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabrın 11-də qəbul edildi. Korpus komandiri general-leytenant Əlağa Şıxlinski təyin edildi.

1917-ci ilin sonu - 1918-ci ilin əvvəllərində Müsəlman Korpusunun qərargahı Tiflisdə yerləşirdi və şəxsi heyəti 1000 nəfərə qədər idi.

1918-ci il mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Lakin bu dövrdə Bakı və onun ətrafı bolşeviklərin hakimiyyəti altında idi. Azərbaycan ərazisində dövlət müstəqilliyini qorumaq üçün milli ordunun yaradılması ən vacib məsələlərdən biri idi. İlk Azərbaycan hökumətinin tərkibində hərbi nazir vəzifəsinə Xosrov bəy Sultanov təyin edildi. Lakin çox qısa müddətdən sonra, 1918-ci il iyunun 17-də təşkil olunan 2-ci hökumət kabinəsində hərbi nazir vəzifəsi nəzərdə tutulmadığı üçün Hərbi Nazirlik ləğv edildi. 1918-ci il iyunun 4-də Batumda Azərbaycanla Türkiyə arasında bağlanmış dostluq müqaviləsinə əsasən, Azərbaycan hökuməti Qafqazdakı türk qoşunlarının komandanı Nuru paşadan xahiş etdi ki, Azərbaycan Ordusunun təşkilində rəhbərliyi öz üzərinə götürsün.

1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman Korpusu "Xüsusi Azərbaycan Korpusu" adlandırıldı və avqustun 1-də Hərbi Nazirlik təsis edildi. Azərbaycan Korpusunun hissələri Qafqaz İslam Ordusunun hissələri ilə birgə qızğın döyüşlər apararaq Bakı şəhərini bolşevik-daşnak qoşunlarından azad etdi və 1918-ci il sentyabrın 15-də Bakıya daxil oldu.

1918-ci il noyabrın 7-də yenidən Hərbi Nazirlik təsis edildi. Nazir vəzifəsini Nazirlər Şurasının sədri Fətəli xan Xoyski öz üzərinə götürdü.

1918-ci il noyabrın 17-də türk qoşunları Mudros sazişinə əsasən Bakını tərk etdikdən sonra ingilis qoşunları Bakıya daxil oldular. İngilis qoşunlarının komandanı general Tomson Bakının general-qubernatoru vəzifəsini öz üzərinə götürdü və şəhərdə hərbi vəziyyət elan etdi.

Belə bir şəraitdə fəaliyyət göstərmək mümkün olmadığı üçün 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçdü. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr tarixli qərarı ilə isə general-leytenant Əlağa Şıxlinski hərbi nazirin müavini təyin edildi.

Səməd bəy Mehmandarov tərəfindən diqqət yetirilən başlıca məsələlərdən biri dövrün tələblərinə uyğun olan struktur formasının seçilməsi idi. 1919-cu ilin yanvarında Xüsusi Azərbaycan Korpusu ləğv edildi. Hərbi Nazirlik diviziya sisteminə üstünlük verirdi. 1920-ci ilin martında Azərbaycan Ordusunun tərkibində iki piyada diviziyası, bir süvari diviziyası, iki topçu briqadası və bir sıra digər hissə və bölmələr fəaliyyət göstərirdi. Zabitlərin hazırlanması üçün Azərbaycanda sonralar hərbi məktəbə çevrilmiş Praporşiklər Məktəbi, İstehkam Məktəbi və Hərbi Dəmiryol Məktəbi var idi.

1919-cu ilin əvvəllərindən başlayaraq Zəngəzurda və Qarabağda ermənilərin silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı qırğın və talanlarının qarşısını almaq üçün Azərbaycan Ordusunun hissələri Qarabağda bir sıra uğurlu əməliyyatlar keçirdilər.

Ancaq Qarabağda və Ermənistanla sərhəd bölgələrdə erməni dəstələri ilə döyüşlərdə Azərbaycan Ordusu da çox böyük canlı və maddi itkilərə məruz qalırdı. Bu çətinliklərdən məharətlə istifadə edən bolşevik qoşunları 1920-ci il aprelində Azərbaycan sərhədini keçəndə ciddi müqavimətlə qarşılaşmadılar. Çünki bu zaman Azərbaycan Ordusunun əsas qüvvələri Qarabağda idi.

1918-20-ci illərdə ordu quruculuğu tarixinin öyrənilməsi bu gün də böyük əhəmiyyət kəsb edir. Bugünkü Azərbaycan Ordusu Azərbaycan Xalq Cümhuriyyəti ordusunun varisidir. 1998-ci il mayın 22-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri*

Xalqımız 1991-ci ilin oktyabrında öz müstəqilliyini bərpa edərkən, əsrin əvvəlində olduğu kimi erməni təcavüzünə məruz qaldı. Erməni təcavüzünə cavab verə biləcək yeganə qüvvə isə Azərbaycanın öz ordusu ola bilərdi. Ona görə də 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar, 1991-ci il oktyabrın 9-da isə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi. Yaradılmağa başlayan Azərbaycan Silahlı Qüvvələri işğalçı erməni silahlı birləşmələri ilə döyüşə-döyüşə, odun və alovun, ölümün və qanın içərisində öz gücünü topladı və formalaşmağa səy göstərdi. Təəssüf ki, bu zaman hakimiyyətə can atan qüvvələr ordu quruculuğuna fəal surətdə mane olur və nəyin bahasına olursa-olsun, respublikada hakimiyyəti ələ keçirməyə can atırdılar.

1993-cü ilin ortalarına kimi davam edən belə bir şəraitdə ordu quruculuğu vahid komandanlıq və bir mərkəzdən idarəolunma prinsipindən tamamilə məhrum edilmişdi. Çünki bu dövrdə dövlətə rəhbərlik edənlər öz şəxsi mənafelərinə xidmət edir və fərdi iddialarını həyata keçirirdilər.

Uzun sürən özbaşınalıqlardan, xəyanətlərdən bezmiş xalqın təkidi ilə Heydər Əliyev yenidən hakimiyyətə dəvət olundu və 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün xalqımızın tarixinə qızıl hərflərlə yazılıb və Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 1997-ci ildən Milli Qurtuluş Günü elan edilib. Məhz bu gündən etibarən respublikamızın həyatında, elm, mədəniyyət, iqtisadiyyat sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də əsaslı dəyişikliklər baş verdi. Xalqla prezidentin birliyi orduya münasibəti kökündən dəyişdirdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev ordu quruculuğu işini elmi əsaslarla, planlı surətdə həyata keçirməyə başladı.

Ordu quruculuğunun əsas mərhələsi 1993-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonrakı dövrü əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin ordu quruculuğunun bu mərhələsində apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Ümummilli lider Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərpa edildi, ordunun maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1993-cü il dekabrın 10-da Beyləqan istiqamətində hücuma keçən Ermənistan silahlı qüvvələri ilk dəfə ordumuzun mütəşəkkil müqaviməti ilə qarşılaşdı. Dekabrın sonlarında Goranboy, Tərtər və Ağdam istiqamətlərində düşmənin hücumlarının qarşısı alındı, onun xeyli canlı qüvvəsi və texnikası məhv edildi. Füzuli-Beyləqan istiqamətində əks-hücuma keçən qoşunlarımız işğal olunmuş torpaqlarımızın bir hissəsini azad etdilər.

Belə bir şəraitdə ermənilər danışıqlar stolu arxasına gəlməyə və 1994-cü il mayın 12-də atəşkəs haqqında sənədə qol çəkməyə məcbur oldular. 12 may sazişi Azərbaycan Silahlı Qüvvələrinin yenidən qurulmasına şərait yaratdı.

Ötən müddət ərzində Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunub, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaranıb.

Silahlı Qüvvələr üçün zabit kadrlarının hazırlanması Müdafiə Nazirliyinin başlıca vəzifələrindən biridir. Burada keçmiş SSRİ dövründə milli zabit kadrlarımızın yetişməsində müstəsna rolu olan, 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış C.Naxçıvanski adına Hərbi Liseyin rolunu və tarixi əhəmiyyətini qeyd etmək vacibdir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müasir standartlar səviyyəsində peşəkar zabit kadrlarının hazırlanması həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Silahlı Qüvvələrin Hərbi Akademiyası fəaliyyətə başlamışdır.

2001-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi yaradılmışdır. Mərkəzdə zabit heyətinin təkmilləşdirmə, ehtiyat zabit hazırlığı, gizir hazırlığı və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursları fəaliyyət göstərir.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsi və peşəkarlığına xidmət edir.

Dövlətçilikdə varislik anlayışına önəm verən ulu öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edildi.

1991-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizi işğal edilib. Həmin torpaqların düşməndən azad edilməsi üçün ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında aparılan məqsədyönlü siyasət müdrik rəhbərin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Azərbaycanda Silahlı Qüvvələrin ən müasir səviyyədə, o cümlədən NATO standartlarına bərabər şəkildə tamamilə yenidən qurulması, hərbi hissələrin maddi-texniki təchizatının təkmilləşdirilməsi, hərbçilərin məişət şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli üçün atılan ardıcıl addımlar bunu bir daha təsdiqlədi. Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə qeyd edib ki, dövlətçiliyimizi qorumaq, torpaqlarımızı düşməndən azad etmək üçün Azərbaycanın güclü ordusu olmalıdır. Azərbaycanın hər sahədə, o cümlədən ordu quruculuğu sahəsində qazandığı uğurlarla müqayisədə təcavüzkar Ermənistan günü-gündən zəifləyir. Azərbaycanda keçirilən hərbi paradlarda hərbi sənayemizin istehsalı olan yeni-yeni müasir hərbi texnika və müasir silah-sursatlar daha çox diqqəti cəlb edir. Artıq ölkəmizdə müxtəlif hərbi texnika, döyüş sursatları istehsal edən çox güclü hərbi sənaye kompleksi yaradılıb. Artıq Azərbaycanın hərbi potensialı ilk növbədə daxili imkanlar hesabına gücləndirilir.

Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayacağını bəyan edən Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarşısında hər an torpaqlarımızı azad etmək üçün hazır olmaq vəzifəsini qoymuşdur. Ali Baş Komandan demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

2016-cı il aprelin 2-dən 5-nə kimi tarixlərində düşmənin növbəti təxribatının qarşısı alınarkən Silahlı Qüvvələrimizin hərbi hissələrinin şəxsi heyəti düşmənə layiqli cavab verərək 23 ildə ermənilərin yaratdığı üstünlük mifini puça çıxarmış, düşmən ordusunun döyüş ruhunu sarsıdaraq əks-həmlə nəticəsində işğal edilmiş torpaqlarımızın bir hissəsini, taktiki cəhətdən daha əhəmiyyətli olan yüksəklikləri erməni işğalçılarından azad etmişdir. Düşmən itirdiyi mövqeləri bərpa etməyə çalışsa da, buna nail ola bilmədi. Ordumuz öz gücünü göstərdi. Bütün bunlar bir daha sübut edir ki, ordumuz torpaqlarımızı hərb yollu ilə azad etməyə qadirdir. Buna ordumuzun yüksək döyüş və mənəvi-psixoloji hazırlığı, döyüş əhval-ruhiyyəsi, qələbə əzmi imkan verir.

Ordumuzun göstərdiyi şücaətə, fədakarlığa qoşulmaq arzusu ilə xalqımız torpaqlarımızın düşmən tapdağından azad edilməsi naminə birlik nümayiş etdirdi. Xalqımızda yaranmış döyüş əhval-ruhiyyəsi, düşmən üzərində qələbəyə inamı daha da artırdı.

Hər bir hərbi qulluqçu dərk etməlidir ki, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə və tarixi qələbəyə hazırlayır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Cəbhə xəttindəki hərbi hissədə bir gün...

*Əsgər anasının ürəyi daim övladı ilə döyünür. Evlərindən kənarda olan övladlarının məişət şəraiti daim düşündürür anaları. Lakin əvvəlki illərdən fərqli olaraq hər bir əsgər anası indi yaxşı bilir ki, müasir ordumuzda əsgərlərin xidmət etməsi üçün hər cür şərait yaradılıb.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya göstərdiyi diqqət və qayğının nəticəsində əsgərlərin məişət şəraiti tamamilə yaxşılaşdırılıb. Şəxsi heyətin sosial təminatı yüksək səviyyəyə çatdırılıb. Silahlı Qüvvələrimizdə aparılan uğurlu islahatlar nəticəsində əsgərlər ərzaq və geyimlə tam şəkildə təmin olunublar.

"N" hərbi hissəsinin düşmənlə təmas xəttində yerləşən bölməsində ezamiyyətdə olarkən əsgərlərə yaradılmış yüksək məişət şəraiti ilə tanış olduq.

Baş gizir Zülfüqar Abbasovla yeməkxanaya daxil oluruq. Yeni tikilmiş yeməkxananın dizaynı göz oxşayır. Girişdə yerləşən əl-üzyuma yeri, salondakı səliqə-sahman, maraqlı təbiət mənzərələri, müasir televizor, yeni mətbəx avadanlıqları və s. diqqətimizi cəlb edir. Yeməkpaylama yerinə qoyulan ağ-qırmızı rəngli təbii qızılgüllərin ətri uzaqdan duyulur. Yeməkxananın gözəlliyindən daha vacib orada çalışanların səliqə-sahmanı, bişirilən xörəklərin dadlı və keyfiyyətli olmasıdır. Deməli, ağ formalı aşpazlar da səliqəli geyimləri və hazırladığı dadlı yeməkləri ilə sanki yeməkxanaya bir gözəllik qatırlar.

İçəri daxil olanda yeməkxana növbətçisi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Taleh Vəliyev nahar üçün ərzaq normalarına uyğun milli yeməklərin hazırlandığını deyir. "Bacarıqlı aşpazlarımız menyuya uyğun olaraq milli yeməklər bişirirlər. Hazırlanan yeməklərin keyfiyyətinə ciddi nəzarət edilir. Əsgərlərimizə milli mətbəximizin gözəl təamlarından bişirilir. Dadlı yeməklər, fəslə uyğun salatlar, şirələr də hazırlanır. Əsgərlərə yaxınlaşıb yeməklərin keyfiyyətini soruşuram. Heç vaxt da narazı qalan olmur. Əsgərlərin qeydinə qalmaq, onlara qayğı göstərmək bizim borcumuzdur", - Taleh deyir.



Nahar zamanı bir neçə masaya yaxınlaşıb əsgərlərlə salamlaşıram. Onların fikirlərini qeydə alıram ki, qoy əsgər anaları hərbi hissələrdə göstərilən yüksək qayğı və diqqəti övladlarının dilindən eşitsinlər. Bilsinlər ki, övladlarının layiqli xidmət etməsi üçün düşmənlə təmas xəttində yerləşən bölmələrdə də yüksək şərait yaradılıb.

Əsgər Elvin Məmmədov küftəni elə iştahla yeyir ki, tox adamın da iştahı çəkir. Hərbi xidmətə Bakı şəhərindən çağırılan əsgər İdman Akademiyasının məzunudur. Yaradılan şəraitdən razılığını bildirir. "Mən xidmətimi başa vurmağa hazırlaşıram. Hərbi xidmətdə bizim üçün hər cür məişət şəraiti yaradılıb. Sağ olsun aşpaz analarımız, çox dadlı yeməklər hazırlayırlar. Küftə, dolma, plov və s. milli yeməkləri eyni ilə evdə anam hazırladığı kimi hiss edirəm. Belə qayğının əvəzində borcumuz ancaq layiqli xidmət etməkdir", - əsgər Məmmədov deyir.



Növbəti həmsöhbətim əsgər Məhəmməd Tağıyevdir. Məhəmməd hərbi xidmətə Sabunçu rayonundan çağırılıb. 14 aydır xidmət edən əsgər də yaradılan şəraitin yüksək səviyyədə olduğunu deyir:

- Şəraitimiz çox yaxşıdır. Gördüyünüz kimi, müasir yeməkxanamız, bişirilən dadlı yeməklər bunlara nümunədir. Mən də fəxr edirəm ki, Azərbaycan Ordusunun əsgəriyəm. Bütün komandirlərimə və qulluğumuzda duran insanlara təşəkkürümü bildirirəm. Belə yüksək qayğı bizə döyüş ruhu aşılayır, dövlətimizlə, ordumuzla qürur duyuruq.

Baş aşpaz kiçik çavuş Nərgiz Abdullayeva 2014-cü ildən burada xidmət edir:

- Yaradılan hər bir şərait əsgərlər üçündür. Oğlumun 12 yaşı var, İnşallah, o da şanlı ordumuzun əsgəri olacaq. Lakin mən artıq 4 ildir özümü əsgər anası hiss edirəm, çünki buradakı hər bir əsgər bizim övladımızdır. Bir ana kimi tam əminliklə deyə bilərəm ki, Azərbaycan Ordusunda əsgərlərə yüksək qayğı göstərilir. Biz bunun hər gün şahidi oluruq. Mən və bütün yeməkxana işçiləri əsgərlərə xidmət etdiyimiz üçün, xüsusən də ön xətdə yerləşən bölmədə xidmət etdiyimiz üçün ikiqat qürurlanırıq. Əsgər balalarımıza dadlı yeməklər bişiririk.

Əsgər yataqxanasına daxil oluruq. Yataq otaqları ilə yanaşı, müasir avadanlıqlarla təchiz olunmuş trenajor otağı, ideoloji sinif, məişət otağı da var.

Yataq otağı ilə tanış oluruq. Burada ikimərtəbəli çarpayılar, yun adyallar, təmiz və ağappaq mələfələr, əl-üz dəsmalları gözə dəyir. Əsgər Famil Yarəliyev otağın səliqə-sahmanı ilə məşğul olur. Əsgəri xidmətə Quba rayonundan çağırılıb. "Burada bizim üçün hər cür şərait yaradılıb. Gördüyünüz kimi, yataq otağımızda hər cür ləvazimatla təmin olunmuşuq. Göstərilən bu diqqətin qarşılığında bizim öhdəmizə düşən tək vəzifə, Vətənə sadiq əsgər olmaq, layiqli xidmət etməkdir", - əsgər deyir.

Növbəti otaqda əsgər Elçin Rüstəmzadə və Fərid İsmayılov fiziki hazırlıqla məşğul olurlar. Hər ikisinin də idmanın sərbəst güləş növü ilə məşğul olduğunu deyirlər. Onlarla söhbət əsnasında öyrənirəm ki, güləş üzrə keçirilən yarışlarda Elçin Ağdam və Bərdə rayonu üzrə, Fərid isə Salyan rayonu üzrə birinci yeri tutub.

Müasir idman avadanlıqları ilə təchiz olunmuş trenajor otağından sonra məişət otağına gedirik. Otaqda paltar ütüləmək və saç kəsdirmək üçün şərait yaradılıb. Bu bölmədə elə yüksək məişət şəraiti ilə qarşılaşırıq, sanki cəbhə xəttində yox, şəhərin mərkəzində yerləşən bölmədəyik.

Paltar ütüləyən əsgər Süleyman Əhmədovla salamlaşırıq. Hərbi xidmətə Salyan rayonundan çağırılıb. Əl saxlayan əsgər deyir:

- Mən Azərbaycan əsgəri olduğum üçün, xüsusən də ön xətdə yerləşən bölmədə xidmət etdiyim üçün, qürurlanıram. Yaradılan belə yüksək şərait, komandirlərimiz tərəfindən göstərilən diqqət və qayğı vətənpərvərliyimizi daha da artırır, bizə mənəvi güc olur.





Bacarıqlı bərbər əsgər Fərid Məhərrəmli əsgər yoldaşı İzzət Zeynallının saç düzümünü səliqəyə salır. Hərbi xidmətə Sumqayıt şəhərindən çağırılan Fəridin üç ildən çox bu sənətlə məşğul olduğunu öyrənirəm. "Mən bu sənətin həm həvəskarı, həm də peşəkarıyam. Asudə vaxtlarımda əsgər yoldaşlarımın saç düzümünü səliqəyə salıram. Mən düşünməzdim ki, cəbhə xəttində sənətimi davam elətdirmək üçün belə şərait olsun. Lakin bölməyə gəlib məişət otağını, saç kəsmək üçün ləvazimatları gördükdə çox sevindim. Bərbərlikdən əlavə mənim müqəddəs bir vəzifəm var - Vətən torpaqlarını qorumaq. Mən də bütün əsgər yoldaşlarım kimi, bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlimdən gələni edirəm. Təcrübəli və savadlı komandirlərim tərəfindən vətənpərvər əsgər kimi yetişirəm", - əsgər Məhərrəmli deyir.

Hər dəfə dövlətin, ordu rəhbərliyinin diqqət və qayğısı nəticəsində əsgərlərin məişət şəraitinin tamamilə yaxşılaşdırıldığının, şəxsi heyətin sosial təminatının yüksək səviyyəyə çatdırıldığının, əsgərlərin ərzaq və geyimlə tam şəkildə təmin olunduğunun şahidi oluruq. Yaradılan belə yüksək şərait isə əsgərlərə sağlam mənəvi-psixoloji ruh aşılayaraq onların qələbə əzmini daha da artırır. Belə şəraitdə xidmət edən gənclərimizi yalnız bir məsələ düşündürür: döyüş vərdişlərini möhkəmlədərək qarşıda dayanan mühüm tapşırıqları yerinə yetirmək!

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi ehtiyat zabit və gizir (miçman) hazırlığı kurslarına namizədlərin qəbulunu elan edir

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil olunacaq "Ehtiyat zabit hazırlığı kursu"na və "Gizir (miçman) hazırlığı kursu"na namizədlərin qəbulu elan edilir.*

**"Ehtiyat zabit hazırlığı kursu"na qəbul şərtləri:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təşkil olunan "Ehtiyat zabit hazırlığı kursu"na müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 28 yaşınadək ali təhsilli vətəndaşlar qəbul olunurlar.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər 20 iyun 2017-ci il tarixdən 10 iyul 2017-ci il tarixədək ərizə ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiq edilmiş surəti;
- xarici dövlətlərdə təhsil almış namizədlər, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə birlikdə, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətləri;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda);
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- məhkumluğunun olub-olmaması barədə "ASAN xidmət" Mərkəzləri tərəfindən verilmiş arayış;
- tibbi müayinə kartı (kitabçası).

Qəbul olunmaq üçün müraciət etmiş namizədlər test üsulu ilə ümumi fənlərdən və fiziki hazırlıqdan keçirilən imtahanlara cəlb edilirlər.

**"Gizir (miçman) hazırlığı kursu"na qəbul şərtləri:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təşkil olunan "Gizir (miçman) hazırlığı kursu"na müddətli həqiqi hərbi xidmətini başa vurmuş, tam orta təhsilli, 28 yaşınadək vətəndaşlar qəbul olunurlar.

"Gizir (miçman) hazırlığı kursu"na qəbul olunacaq namizədlərlə kursu bitirdikdən sonra 5 il müddətinə könüllü qaydada gizirlərin (miçmanların) həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma imzalanır.

"Gizir (miçman) hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər 1 iyul 2017-ci il tarixdən 12 iyul 2017-ci il tarixədək ərizə ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə, çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surətləri;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqlarının doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda);
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4,5x6 sm ölçüdə);
- məhkumluğunun olub-olmaması barədə "ASAN xidmət" Mərkəzləri tərəfindən verilmiş arayış;
- tibbi müayinə kartı (kitabçası).

Qəbul olunmaq üçün müraciət etmiş namizədlər test üsulu ilə ümumi fənlərdən və fiziki hazırlıqdan keçirilən imtahanlara cəlb edilirlər.

**Ünvan**: *Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi) Telefon: (012) 538-85-62*

# Naxçıvan Qarnizonu üzrə təşkil olunan futbol birinciliyində 17 komanda mübarizə aparıb

*Naxçıvanda "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında Naxçıvan Qarnizonu üzrə təşkil olunan futbol birinciliyində 17 komanda mübarizə aparıb.*



Hərbi qulluqçular arasında idmanın təbliği və güclü komandaların müəyyən edilməsi məqsədi ilə Əlahiddə Ümumqoşun Ordu Komandanlığının təşkil etdiyi birincilik Olimpiya sistemi üzrə keçirilib.

Finala qədər yüksələn ən güclü 2 komandanın gərgin mübarizəsində 2:0 hesabı ilə "N" hərbi hissəsi qalib gəlib. İlk üçlükdə qərarlaşan komandalar Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman və kubokla mükafatlandırılıb.

Yeddi gün davam edən birincilikdə hərbi qulluqçularla yanaşı, Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin kursantları da mübarizə apararaq, 17 komanda arasında 4-cü yerdə qərarlaşıb.

**Leytenant Nəriman NƏCƏFOV**

# Xəbərlər: hadisələr, faktlar

## Fransada antiterror əməliyyatlarının gedişində 6 nəfər saxlanılıb



Fransa polisi paytaxt regionunda və ölkənin cənub-qərbində yerləşən Bordo şəhərində keçirilən terror əleyhinə əməliyyatların gedişində 6 nəfəri saxlayıb.

Mayın 29-da və 30-da keçirilən əməliyyatlar nəticəsində 2 qadın və 4 kişi saxlanılıb.

Polisin məlumatına əsasən, saxlanan şəxslərin insanları Suriyaya yollayan şəbəkə ilə əlaqələri olub. Onlardan birinin "Quantanamo"da 8 il həbs cəzası çəkdiyi bildirilir.

## Bağdadda sutka ərzində ikinci partlayış törədilib



İraqın paytaxtı Bağdad şəhərində sutka ərzində baş verən ikinci partlayış nəticəsində azı 7 nəfər həlak olub, 30 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb.

Partlayıcı qurğu avtomobildə yerləşdirilib. Hadisənin təfərrüatları barədə məlumat verilmir.

Bundan əvvəl Bağdad şəhərinin mərkəzində, dondurma mağazasının qarşısında törədilən partlayış nəticəsində isə 13 nəfər həlak olmuş, 30-dan artıq insan yaralanmışdı.

Qeyd edək ki, ölkənin bir hissəsini nəzarət altına alan İŞİD qruplaşmasının fəaliyyəti nəticəsində İraqda gərgin vəziyyət davam edir. Silahlıların hücumları və təxribatları nəticəsində hökumət qüvvələri xeyli itki verir. Münaqişədən, həmçinin dinc sakinlər də əziyyət çəkir.

## Moskvada qasırğa zamanı 170 nəfər yaralanıb



Mayın 29-da Moskvada baş verən qasırğa nəticəsində 170 nəfərin yaralandığı bildirilir. Onların 108 nəfəri, o cümlədən 22 uşaq hələ də xəstəxanadadır.

Təbii fəlakət nəticəsində mindən çox avtomobilə ziyan dəyib, 180 binanın damı uçub, 6 mindən artıq ağac kökündən çıxıb. Ötən gün müşahidə edilən təbii fəlakət 130 il ərzində Rusiya paytaxtında baş vermiş ən güclü qasırğadır. Sinoptiklərin məlumatına görə, küləyin sürəti saatda 23, bəzi yerlərdə 27-28 metrə çatıb. Hazırda sinoptiklər təbii fəlakətin təkrarlanacağını istisna etmir və təhlükəsizlik vəziyyətinin ən yüksək - "narıncı" səviyyədə olduğunu bildirilər. Proqnoza görə, qeyri-sabit hava şəraiti həftə ərzində davam edəcək.

Rusiya İstintaq Komitəsinin rəsmi nümayəndəsi Svetlana Petrenkonun verdiyi son məlumata görə, qasırğa nəticəsində həlak olanların sayı 14 nəfərə çatıb.

## Yunanıstanda qırıcı təyyarə qəzaya uğrayıb



Yunanıstan hərbi hava qüvvələrinə məxsus "Mirage 2000" qırıcı təyyarəsi Sporada yaxınlığında keçirilən hərbi təlimlərdə qəzaya uğrayıb.

Qəza zamanı qırıcı təyyarənin mühərrikində problemlər yaranıb, pilot isə təyyarədən katapultasiya edib.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Məhəmməd NƏSİRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 231 Nüsxə 4650 |